09 oktyabr 2013-cü ildə keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun prezidentliyə qeydə alınmış namizəd Cəmil Poladxan oğlunun Həsənlinin səlahiyyətli nümayəndəsi Mustafa Hacılının Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına daxil olmuş şikayəti üzrə

# RƏYİ

Bakı şəhəri 15 oktyabr 2013-cü il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2013-cü il oktyabrın 9-da keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində prezidentliyə qeydə alınmış namizəd Cəmil Poladxan oğlu Həsənlinin səlahiyyətli nümayəndəsi Mustafa Hacılının 35 saylı Xətai üçüncü seçki dairəsi dairə seçki komissiyasının 2 saylı, 12 oktyabr 2013-cü il tarixli protokolunun ləğv edilməsi və mahiyyəti üzrə qərar qəbul edilməsinə dair 14 oktyabr 2013-cü il tarixli, 19 saylı şikayətini araşdıraraq müəyyən etdim:

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddəsinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli Təlimatının tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

Şikayət vermiş səlahiyyətli nümayəndəyə tərəfimdən araşdırma aparılması barədə məlumat verilmiş, ona şikayətlə bağlı əlavə sənəd və sübutları təqdim etmək təklif edilmiş, araşdırmada iştirak etmək hüququnun olması bildirilmiş və araşdırmada iştirak etməyə dəvət edilmişdir.

Şikayətçi Mustafa Hacılı 15 oktyabr 2013-cü ildə Mərkəzi Seçki Komissiyasına gəlmiş, müraciətlə bağlı bir ədəd 09 oktyabr 2013-cü il tarixli, iki səlahiyyətli nümayəndə tərəfindən imzalanmış akt təqdim etmiş və araşdırmada iştirak etmişdir. Eyni zamanda bildirmişdir ki, seçki günü baş vermiş pozuntulara dair xeyli sayda aktlar vardır ki, onları məhkəməyə təqdim edəcəkdir.

Şikayətin araşdırılması nəticəsində aşağıdakılar müəyyən edilmişdir:

Prezidentliyə qeydə alınmış namizəd Cəmil Poladxan oğlu Həsənlinin səlahiyyətli nümayəndəsi Salayev Mübariz Ağasala oğlu 11 oktyabr 2013-cü il tarixdə şikayət ərizəsi ilə 35 saylı Xətai üçüncü seçki dairəsinin dairə seçki komissiyasına müraciət edərək seçki dairəsinin bütün seçki məntəqələrində məşvərətçi səs hüquqlu komissiya üzvlərinin və müşahidəçilərin müşahidəsi altında qanunauyğun şəkildə karbonlaşdırılmış protokol tərtib edilmədiyini, səslərin hesablanmasının fasiləsizliyi prinsipinin pozulduğunu, seçki məntəqəsi

sədrlərinin dairə seçki komissiyasına gedərək razılıq aldıqlarını, protokolun surətinin müşahidəçilərə verilmədiyini və eləcə də protokolun üçüncü nüsxəsinin elanlar lövhəsində asılmadığını bildirərək dairə üzrə bütün seçki məntəqələrində seçkilərin nəticələrinin ləğv olunması haqqında qərar qəbul edilməsini xahiş etmişdir.

Şikayət ərizəsi dairə seçki komissiyasında yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq müvafiq rəy verilmişdir. Həmin rəydə göstərilir ki, şikayətlə əlaqədar məntəqə seçki komissiyalarının sədrlərindən, dairə seçki komissiyasının üzvlərindən izahatlar alınmış və səsvermə günü seçki prosesini müşahidə etmiş, müxtəlif maraqları təmsil edən müşahidəçilər arasında sorğu aparılmışdır. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, Milli Şuranın seçki məntəqələrindəki məşvərətçi səs hüquqlu üzvləri və müşahidəçiləri səsvermə başa çatanadək qanun pozuntusu barədə heç bir irad bildirməmişlər. Dairə seçki komissiyasında protokolların qəbul edilməsi prosesini müşahidə etmiş ATƏT-in Seçki Müşahidə Missiyasının nümayəndələri tərəfindən də məntəqə seçki komissiyalarının protokolları təhvil verilənədək komissiya sədrlərinin dairə seçki komissiyasına gəlib getmələri ilə bağlı hər hansı bir halın olması qeyd edilməmişdir. Səsvermə günü saat 20.00-dan sonra dairə seçki komissiyasında müşahidə aparmış ərizəçi Mübariz Salayev hər hansı bir məsələ ilə bağlı öz iradını bildirməmişdir. Ekspert qrupunun üzvü nəticəyə gəlmişdir ki, şikayətçinin müraciətdə göstərdikləri əsassızdır.

Şikayətə 12 oktyabr 2013-cü ildə dairə seçki komissiyasının iclasında baxılmış və 2 saylı iclas protokolunda şikayət ərizəsində qeyd olunmuş faktların öz təsdiqini tapmadığı qeyd olunan 6/1 saylı protokol qərar qəbul edilmişdir. Ekspert qrupu üzvünün rəyi və protokol qərarın surəti şikayətçiyə təqdim edilmişdir.

Göründüyü kimi ilkin şikayətlə bağlı dairə seçki komissiyasında müvafiq araşdırma aparılıb, iclasda müzakirə olunub və mahiyyəti üzrə protokol qaydasında qərar qəbul edilmişdir. Bu məsələdə dairə seçki komissiyası tərəfindən qərarın tərtibi ilə bağlı prosessual pozuntuya yol verilməsi müəyyən edilir və ona görədə həmin protokol üzrə gəlinən nəticə qanunvericiliyin tələblərinə uyğun olmadığından etibarsız hesab edilməli, şikayətçinin həmin araşdırma ilə razılaşmamasını və mahiyyəti üzrə qərar qəbul edilməsi xahişini nəzərə alaraq yeni araşdırma aparılmalıdır.

Yeni araşdırılma aparılarkən seçki dairəsinin məntəqələrində müxtəlif siyasi qüvvələri təmsil edən komissiya üzvlərindən və seçki prosesini müşahidə etmiş müşahidəçilərdən izahatlar alınmış və səsvermə günü səsvermə prosesini əvvəldən axıradək izləmiş müşahidəçilər və komissiya üzvləri tərəfindən tərtib edilmiş və məntəqə seçki komissiyasının protokollarına əlavə edilmiş aktlar əldə edilmişdir. Səsvermə günü Ədalət Partiyasının təmsilçiləri olaraq 2 saylı seçki məntəqəsində müşahidə aparmış Əliyeva Arzu Rza qızı, 4 saylı seçki məntəqəsində müşahidə aparmış Fərəcova Şəhla Ələşrəf qızı, 6 saylı seçki məntəqəsində müşahidə aparmış Abdullayeva Sahibə Cabbar qızı, BAXCP təmsilçiləri olaraq 3 saylı seçki məntəqəsində

müşahidə aparmış İsmayılova Cəmilə Məmmədəli qızı, 5 saylı seçki məntəqəsində müşahidə aparmış Əhmədov Elxan Əhəd oğlu, 8 saylı seçki məntəqəsində müşahidə aparmış Məhərrəmova Kifayət Məhərrəm qızı, ASDP-nin təmsiçiləri olaraq 5 saylı seçki məntəqəsində müşahidə aparmış Abbasova Minayə Əmirxan qızı, 6 saylı seçki məntəqəsində müşahidə aparmış Qurbanova Sayalı Bayram qızı, öz təşəbbüsləri ilə müşahidəçi qismində 1 saylı seçki məntəqəsində müşahidə aparmış Səlimova Nella Baba qızı, 6 saylı seçki məntəqəsində müşahidə aparmış İsmayılov Elşən Əliş oğlu, 14 saylı seçki məntəqəsində müşahidə aparmış Əsgərova Yasəmən Fətəli qızı, 16 saylı seçki məntəqəsində müşahidə aparmış Məmmədova Tünzalə Murad qızı, YAP-ın təmsilçiləri olaraq 2 saylı seçki məntəqəsində müşahidə aparmış Gülməmmədova Validə Əli qızı, 3 saylı seçki məntəqəsində müşahidə aparmış Səlimova Təranə Fazil qızı, 4 saylı seçki məntəqəsində müşahidə aparmış Məmmədov Rafiq Hüseyn oğlu və yüzdən artıq digər müşahidəçilər izahat verərək göstərmişlər ki, səsvermə günü səsvermə başlanandan səslər hesablanıb protokollar tərtib edilənə qədər seçki prosesini müşahidə etmişlər və səsvermə prosesinin qanunvericilik tələblərinə uyğun keçirildiyinin şahidi olmuşlar. Məntəqə seçki komissiyasının üzvləri və digər seçki subyektləri tərəfindən qanun pozuntusuna yol verilməsi faktını müşahidə etməmişlər.

09 oktyabr 2013-cü ildə səsvermə prosesi başa çatdıqdan sonra bütün gün ərzində səsvermə prosesini müşahidə etmiş, müxtəlif siyasi qüvvələri təmsil edən müşahidəçilərin dairənin əhatə etdiyi 5, 6, 9, 13, 14, 15, 16 və 18 saylı məntəqə seçki komissiyalarının üzvləri ilə birgə tərtib etdikləri və protokollara əlavə edilmiş aktlardan müəyyən edilir ki, səsvermə prosesi qanunauyğun, yerli və beynəlxalq müşahidəçilərin müşahidəsi altında şəffaf keçirilərək seçki prosesini müşahidə edən bütün maraqlı subyektlərin gözü qarşısında səslər sayılaraq protokollar tərtib edilmiş, , protokolun əsas nüsxəsi dairə seçki komissiyasına təhvil verilmiş, bir nüsxəsi məntəqədə elanlar lövhəsində asılmış və protokolun nüsxələri müşahidəçilərə verilmişdir.

Araşdırma ilə əlaqədar 35 saylı Xətai üçüncü seçki dairəsinin dairə seçki komissiyasından daxil olmuş məktubda göstərilir ki, 09 oktyabr 2013-cü ildə keçirilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində səsvermə günü seçki məntəqələrində səsvermənin gedişini müşahidə edən müşahidəçilərdən, eləcədə digər subyektlərdən məntəqə seçki komissiyalarına və dairə seçki komissiyasına pozuntular barədə rəsmi şikayət daxil olmamışdır.

Şikayətçi Mustafa Hacılının sübut qismində araşdırmaya təqdim etdiyi bir ədəd 09 oktyabr 2013-cü il tarixli akt seçki dairəsinin bütün məntəqələrini əhatə edərək ümumi xarakterli olmaqla iki səlahiyyətli nümayəndə tərəfindən imzalanması həmin aktın hansı seçki məntəqəsinə və faktiki olaraq kimlərin müşahidəsinə əsaslanmasını müəyyən etməyə imkan vermədiyindən, eyni zamanda Seçki Məcəlləsinin müşahidənin aparılmasının prinsiplərinə dair 41-ci maddəsinin tələblərinin pozulması ilə müşaiyət edildiyindən sübut kimi qiymətləndirilməsi mümkün olmamışdır.

Beləliklə, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə müəyyən edilir ki, prosessual baxımdan dairə seçki komissiyasının protokolu üzrə gəlinən nəticə qanunvericiliyin tələbinə uyğun olmadığından müraciət qismən təmin edilərək protokol üzrə gəlinən nəticə etibarsız hesab edilməli, mahiyyəti üzrə hissədə isə əsassız olduğundan təmin edilməməlidir.

Yuxarıda şərh olunanlara, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 2.6-cı, 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 41-ci, 112-ci, 112-1-ci, maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli Təlimatınının 1, 2 ,4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. Prezidentliyə qeydə alınmış namizəd Cəmil Poladxan oğlu Həsənlinin səlahiyyətli nümayəndəsi Müstafa Hacılının 14.10.2013-cü il tarixli 19 saylı şikayəti qismən təmin edilsin.

2. 35 saylı Xətai üçüncü seçki dairəsi dairə seçki komissiyasının şikayətçi Salayev Mübariz Ağasala oğlunun müraciəti əsasında 12 oktyabr 2013-cü il tarixli, 2 saylı protokolu üzrə gəlinən nəticə qanunvericiliyin tələblərinə uyğun olmadığından etibarsız hesab edilsin.

3. Müraciət 35 saylı Xətai üçüncü seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız hesab edilməsi hissəsində əsassız olduğundan təmin edilməsin.

4. Rəy verildiyi andan 18 saatdan gec olmayaraq Komissiyanın müvafiq qərarı ilə birlikdə dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə çatdırılsın.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov